# Qərbi Azərbaycan İcmasında Qayıdış Konsepsiyasının hazırlanmasına başlanılıb

**Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan ziyalılarla görüşü zamanı irəli sürdüyü Qayıdış Konsepsiyası ilə bağlı Qərbi Azərbaycan İcmasında dərhal işə başlanılıb.**

Bunu AZƏRTAC-a açıqlamasında Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqar söyləyib.

Qayıdış Konsepsiyanın hazırlanması istiqamətində iş aparıldığını söyləyən mətbuat katibi deyib: "İcma olaraq bu konsepsiyanı vaxtında yekunlaşdırmağa çalışacağıq. Konsepsiya hazır olandan sonra Qərbi Azərbaycan İcması fəaliyyətini bu sənədə əsasən davam etdirəcək".

Azərbaycan.- 2022.- 27 dekabr.- S.5.